**Fransada Təhsil : 2020-ci tədris ilinin başlanğıcında İslam İnkişaf Bankı (BID) və Campus France-ın birgə təqaüdünü qazanmaq üçün müraciət edin !**

**İslam İnkişaf Bankı (BID) və Campus France Agentliyi 2020-ci tədris ilinin başlanğıcında Fransada təhsilə müraciət edən və İslam İnkişaf Bankına (BID) üzv olan ölkələrin (Azərbaycan da bura daxildir) tələbələri üçün birgə olaraq təqaüd proqramı irəli sürür.**
**Sənəd qəbulunun açıq elan olunması iyunun 20-dən iyunun 30-a olan müddət ərzində nəzərdə tutulub.**




Bu yeni təqaüd proqramı, maliyyələşdirilən tələbələrə Fransada bakalavr, magistratura və doktorantura pillələrində 27 sahə üzrə təhsillərini davam etdirməyə imkan yaradır.

**TƏHSİL SAHƏLƏRİ**
Kənd təsərrüfatının davamlı inkişafı ; Təhsil ; Davamlı inkişafda təhsil ; İqlim dəyişkənliyi ; Enerji ; Davamlı inkişafda olan şəhərlər ; Məsuliyyətli artım ; Tullantıların idarə olunması ; Əhali artımı; Ekoloji kimya (yaşıl kimya) ; Biomüxtəliflik ; Plastika və mikroplastika çirklənməsi ; Su və gigiyena ; Tibb ; İnkişaf üçün İRT ; İnfrastrukturların innovasiya və inkişafı ; İqtisadiyyat, maliyyə və islam bankı ; İnkişafla bağlı sosial elmlər ; Tibbi və həyat elmləri ; Ekologiya ; Təhsil ; Mühəndislik ; Kənd təsərrüfatı ; İnformatika və informasiya texnologiyaları ; Fundamental elmlər ; İqtisadiyyat, maliyyə və bank ; Sosial elmlər.

**HANSI TƏHSİL SƏVİYYƏSİ ÜÇÜN ?**
Bütün təhsil səviyyələri üzrə müraciətlər qəbul olunur (bakalvr, magistratura, doktorantura)

**KİM MÜRACİƏT EDƏ BİLƏR ?**

- 2020-ci tədris ilinin başlanğıcı üçün Fransada təhsilə artıq müraciət etmiş bütün azərbaycanlı tələbələr.
- Yuxarıda sadalanan sahələr üzrə təhsil almağı nəzərdə tutan tələbələr.

**NECƏ MÜRACİƏT ETMƏLİ ?**
Müraciət dosyalarının hazırlanması ilə bağlı məlumatlar İslam İnkişaf Bankının (BID) rəsmi saytında 20 iyun tarixindən etibarən paylaşılacaq.
Müraciətlər birbaşa İslam İnkişaf Bankına (BID) rəsmi saytı vasitəsilə 2020-ci il iyunun 20-dən iyunun 30-dək təqdim olunmalıdır : www.isdb.org

**NƏTİCƏDƏ :**

Təqaüdü qazanan tələbələr Fransa və İslam İnkişaf Bankının (BID) ikili maddi dəstəyindən faydalanacaqlar :

- Fransanın Dövlət Təqaüdçüsü statusunun qazanılması (BGF) : viza rüsumundan azad olunma, Avropa İttifaqına daxil olmayan ölkələrin tələbələri üçün tətbiq olunan qeydiyyat ödənişlərindən azad olmaq, sığorta ödənişinin geri qaytarılması.
- İslam İnkişaf Bankı (BID) tərəfindən bir təhsil dərəcəsi üzrə bir ildən dörd ilə qədər davam edən təhsil üçün ayına 700 € məbləğində təqaüdün ödənilməsi.
- Parisdə yerləşən Campus France Agentliyi tərəfindən təyyarə biletinin rezervasiyası və qarşılanması.
- Parisdə yerləşən Campus France Agntliyi tərəfindən sentyabrın əvvəlində tələblərə yerləşmələri üçün dəstəyin göstərilməsi.

**TƏQVİM**

- **Müraciət mərhələsi :** 20 iyun 2020-ci il tarixindən 30 iyun 2020-ci il tarixinə qədər **.**
- **Nəticələrin açıqlanması** : 2020-ci il avqust ayının əvvəli.

**SUALINIZ VAR?**

Campus France Azərbaycan bürosu ilə əlaqə saxlayın !

Email: bakou@campusfrance.org
Telefon: (+994) 12 596 35 82 / (+994) 55 428 54 89
Sosial şəbəkələr : @campusfranceazerbaidjan ; @campusfrancebakou